# Dəyərli alim, görkəmli ictimai xadim, səmimi dost



Cəmiyyətin inkişafını təmin edən əsas amillərdən biri onun ziyalıları, oddan-alovdan çıxmış şəxsiyyətləridir. Onlar hansı dövrdə yaşamalarından asılı olmayaraq həmişə xalqının, vətəninin inkişafı üçün böyük zəhmət çəkmişlər. Azərbaycanın belə şəxsiyyətlərindən biri uzun illər respublikamızın ictimai, siyasi, sosial-iqtisadi həyatında silinməz iz buraxmış Həsən Həsənovdur. ***Həsən müəllim son 60 ildə respublikanın ali dövlət strukturlarında çalışan yüksək vəzifəli şəxslərdən biri kimi Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi Azərbaycanın sosial-iqtisadi inkişafı ilə əlaqədar strategiyanın həyata keçirilməsində bilavasitə əsas təşkilatçılarından biri kimi məhsuldar fəaliyyət göstərmiş, doğma vətəninə, xalqına ləyaqətlə xidmət etmişdir. Bu çətin, məsuliyyətli, amma şərəfli yolun hər günü bir tarixdir...***

Bir neçə söz onunla tanışlığım barədə. Mən 1965-1966-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Birləşmiş komsomol komitəsinin katibi idim, eyni zamanda Elmlər Akademiyasının İqtisadiyyat İnstitutunda baş elmi işçi işləyirdim. Həsən müəllim isə respublika komsomol təşkilatında məsul vəzifədə çalışırdı.

Azərbaycan Gənclər Təşkilatının ümumrespublika tədbirlərində onunla görüşür, bir-birimizdən hal-əhval tuturduq... 1974-cü illərin əvvəllərində məni Mərkəzi Komitənin sənaye və tikinti məsələləri üzrə katibi Firudin Əliyev qəbul edərək bildirdi ki, Azərbaycan rəhbərliyinə Respublika tikinti kompleksinin inkişafı, onun səmərəlilik göstəriciləri ilə bağlı bir arayış hazırlamaq lazımdır. Bu işin icrası aparatın sektor müdiri Həsən Həsənova, aparatın məsul işçisi Ramiz Tarverdiyevə və mənə həvalə olundu. Tapşırıq vaxtında yerinə yetirildi. Onu da qeyd etmək istərdim ki, hazırlanan arayışda respublikanın tikinti kompleksində vəziyyətin yaxşılaşdırılması ilə bağlı təkliflər öz əksini tapmışdı. Yarım əsr bundan əvvəl Həsən müəllimlə başlanan əməkdaşlığımız sonrakı illərdə daha da genişləndi.

Həsən müəllimin çox zəngin bioqrafiyası vardır. Gənc yaşlarından yuxarıda qeyd edildiyi kimi, Komsomol təşkilatının məsul işçisi, Kommunist Partiyasının Mərkəzi Komitəsində məsul işçi, Bakı şəhəri Səbayıl rayon Partiya komitəsinin birinci katibi vəzifələrində çalışmışdır.

Həsən Həsənov xeyli müddət respublikanın iqtisadi-sosial həyatında mühüm rol oynayan Gəncə şəhər partiya komitəsinin birinci katibi vəzifəsində çalışıb. Onu da xüsusi ilə vurğulamaq istərdim ki, Həsən Həsənovun respublikanın ikinci şəhərinə rəhbərlik etdiyi illərdə burada, sözün əsl mənasında irimiqyaslı tədbirlər həyata keçirildi. Zəngin tarixə malik olan bu diyarda milli-mənəvi dəyərlərin qorunması, şəhərin iqtisadi potensialının gücləndirilməsi istiqamətində xeyli işlər görüldü. Heç nə unudulmur. Gəncəyə yolum düşəndə bu qədim şəhərin ziyalıları, sənaye, tikinti və sosial sahələrdə çalışanlar Həsən müəllimin azərbaycançılıq ideologiyasına sadiqliyindən, tarixi ənənələrimizin qorunması üçün gördüyü böyük işlərdən ağız dolusu danışırlar.

***Bir müddətdən sonra Həsən müəllim Azərbaycan KP MK-nın katibi seçildi. Respublika xalq təsərrüfatının iqtisadiyyatını (kənd təsərrüfatı istisna olmaqla) partiya rəhbərliyi tərəfindən ona həvalə edildi. Bu çox mühüm, həm də şərəfli iş idi.***

Xalqımız XX əsrin 70 ilini sovet dövründə yaşayıb yaratmışdır. Sovet sisteminin milli respublikalar üçün çətinliklər yaratdığı məhdudiyyətlərə, çətinliklərə baxmayaraq, xalqımız bu illərdə böyük inkişaf yolu keçmişdir. Bunu inkar etməyə heç birimizin mənəvi haqqı yoxdur. Ötən əsrin 70-80-ci illərində Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi, mədəni həyatında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklər baş verdi. İqtisadiyyatımızın gücü əhəmiyyətli dərəcədə möhkəmləndi. Sənayedə mütərəqqi struktur dəyişiklikləri baş verirdi. Xalq təsərrüfatının maddi-texniki bazası möhkəmləndirildi. Elm, təhsil, mədəniyyət sahələri inkişafın yeni mərhələsinə qədəm qoydu. XX əsrin 80-ci illərinin ortalarından başlayaraq Sovetlər İttifaqında xalqımızın düşməni Mixail Qorbaçovun ortaya atdığı yenidənqurma dövründə Mərkəzin Azərbaycana təzyiqləri xeyli artdı. Açıq-aşkar hiss edilirdi ki, Qorbaçov Heydər Əliyevə qısqanclıqla yanaşır. Mixail Qarbaçovun "alkoqolizmə qarşı mübarizə" pərdəsi altında Azərbaycanda 70-ci illərdə yaradılan güclü aqrar-sənaye kompleksi, xüsusi ilə də üzümçülüyün inkişafına güclü zərbələr vuruldu.

Respublikanın xalq təsərrüfatında yaranmış çətin vəziyyəti aradan qaldırmaq üçün yeni iqtisadi artım mənbələrinin aşkar edilməsi, onlardan istifadə imkanlarının müəyyənləşdirilməsi üçün daha təsirli tədbirlərin görülməsi tələb edilirdi. Həsən Həsənovun bilavasitə sədrliyi ilə respublika ərazi təsərrüfatı hesabına keçməsinə hazırlıq işlərinə başlanıldı, yeni dövrün tələblərinə uyğun olaraq plan, maliyyə, bank orqanlarının vəzifələri müəyyənləşdirildi.

Həsən müəllimin rəhbərliyi ilə xeyli işlər görüldü. Respublika nazirlik və idarələrinin, bank, maliyyə strukturlarının əməkdaşlarından ibarət işçi qrupları yaradıldı. Nazirlik istehsal birliklərinin təsərrüfat hesabına keçməsi, istehsal tapşırıqlarının yerinə yetirilməsi, iqtisadi həvəsləndirmə mexanizmlərinin təkmilləşdirilməsi barədə təkliflər hazırlandı. Təsərrüfat hesabına keçən müəssisə və istehsal birliklərinin fəaliyyətlərində müsbət meyillər gücləndi.

İş qrafiki çox gərgin idi. Mərkəzin tapşırıqları, sənaye, tikinti, nəqliyyatın inkişafı ilə əlaqədar məsələlərə dair şəhər, rayon partiya təşkilatlarına, nazirlik, sənaye istehsal birliklərinin rəhbərlərinə verilən tapşırıqlar, onların hesabatlarını dinləmək və s.




Həsən müəllim Qarabağ münaqişəsinin ilk günlərindən erməni separatizminə qarşı yorulmaz mübarizə aparır, Sovetlər İttifaqındankı ermənipərəst qüvvələrin əsassız çıxışlarına öz kəskin etirazlarını bildirir, xalqımızın azadlığa qovuşmaq arzularını böyük sevgi ilə müdafiə edirdi. Həsən müəllim Azərbaycan dövlətinin müstəqilliyinin ən çətin illərində xarici işlər naziri, bir neçə ölkədə diplomatik vəzifələrdə çalışmış, Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artması istiqamətində gərgin və məhsuldar işlər görmüşdür. Onu demək kifayətdir ki, Ulu öndər Heydər Əliyevin tapşırığı ilə Həsən Həsənovun diplomatik fəaliyyəti çox zəngin və mənalı olub. Arzu edərdim ki, hörmətli Həsən müəllimin bu barədə xatirələri də kitab şəklində nəşr edilsin.

***Həsən müəllimin Mərkəzi Komitənin katibi kimi Azərbaycanın dəyərli sənət adamları, yaradıcı insanları, tanınmış ziyalıları ilə müntəzəm görüşləri, səmimi söhbətləri, dostluğu ilk növbədə, milli mədəniyyətimizin inkişafına, bu sahədə mövcud problemlərin həllinə kömək edirdi.***

Həsən müəllimin tapşırıqlarının icrası ilə MK-nın sosial-iqtisadiyyat şöbəsinin əməkdaşları məşğul olurdu. Onlar xalq təsərrüfatı sahələri üzrə istehsal planlarının yerinə yetirilməsinə, iqtisadi, bank, maliyyə orqanlarının fəaliyyətinin yaxşılaşdırılmasına dair təkliflər hazırlayır, kompleks təhlillər aparırdı. Yeri gəlmişkən qeyd edim ki, Mərkəzi Komitənin sosial-iqtisadiyyat şöbəsində peşəkar, yüksək ziyalılığı ilə seçilən, bu gün də cəmiyyətdə böyük hörmətlə xatırlanan dəyərli insanlar çalışırlar. Onlardan bir neçəsinin adını çəkmək yerinə düşərdi. Natiq Əliyev – sonralar Neft Şirkətinin prezidenti, sənaye və energetika naziri, Siruz Abasbəyli - rabitə naziri, Fəxrəddin Cavadov - səhiyyə nazirinin birinci müavini, Neftçilər Xəstəxanasının baş həkimi, Əhməd Vəliyev - Dövlət Maddi-Texniki Təchizat Komitəsinin sədr müavini, Ramiz Rzayev – Nazirlər Kabinetinin tikinti şöbəsinin müdiri, İlyas Hacıyev – Nazirlər Kabinetinin İşlər idarəsnin müdiri, Rafiq Babayev- Dövlət Əmək Komitəsinin sədr müavini, şöbənin əməkdaşları - Vəli Nəcəfqulubəyov, Rəşid Babayev, Bəhruz Əliyev və digərləri dövlət strukturlarında məsul vəzifələrdə səmərəli fəaliyyət göstərmişlər.

Həsən müəllim bizim hamımız üçün güclü təşkilatçı, peşəkar mütəxəssis, yüksək ziyalı və səmimi dostdur.

Fikirlərimi ümumiləşdirərək bir daha vurğulamaq istərdim ki, Həsən müəllim xalqımızın çox dəyərli dövlət xadimlərindən, əsl ziyalılarımızdan biridir. Onun mənalı ömrünün 60 ili Azərbaycanın inkişafına, xalqımızın milli dəyərlərinin qorunmasına həsr edilib.

***Həsən müəllim Azərbaycan elminin dəyərli alimlərindən biridir, tarix elmləri doktoru, professordur. Onun Azərbaycan tarixinin aktual problemlərinə həsr edilmiş əsərlərində öz əksini tapan faktlar vətən tarixinin qaranlıq səhifələrinin azaldılmasına, Türk dünyasının mənəvi dəyərlərinin qorunmasına xidmət edir.***

Bu yazını hazırlayıb çapa verəndə Vaşinqtondan xoş xəbər gəldi - Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Azərbaycan-Ermənistan sülh bəyannaməsi imzalandı. Bu tarixi sənəd Cənubi Qafqazda sabitlik, iqtisadi inkişaf və təhlükəsizlik sahələrində yeni imkanlar açdı. Həsən müəllimin Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanladığı, vətən sevgisi ilə yazılan çox yığcam və məzmunlu təbrik məktubu onun bu tarixi hadisəyə münasibətini əks etdirir. Həsən müəllimin bu razılaşmanı Azərbaycan diplomatiyasının növbəti qələbəsi, Cənubi Qafqazda yeni dövrün başlanğıcı kimi qiymətləndirməsi onun əsl vətəndaş, vətən oğlu, ziyalı mövqeyini bir daha təsdiqləyir.

Həsən müəllimə möhkəm can sağlığı, uzun ömür, doğma Vətənimizin tərəqqisi, onun daha da çiçəklənməsi naminə gördüyü işlərdə uğurlar arzulayıram. Allah onu qorusun!

**Akademik**
**Ziyad SƏMƏDZADƏ**